

*Zümrüd RƏHİMOVA-ŞƏFİYEVA,*
*AMEA Şərqşünaslıq İnstitutu, İran filologiya şöbəsi aparıcı elmi işçi*

# AYRILIĞIN SONU VARMIŞ, YAXUD BİZ QARABAĞIMIZA QOVUŞDUQ

Əslim-nəsəbim Qalalı (Şuşa qalası) olsa da aranda – Mil düzündə böyümüşəm. Aranda nə dağ var, nə çay, nə bulaq. Amma aranın dağları var. Tanrı bu gözəl məkanı dağlı-aranlı, aranlı-dağlı yaradıb. Keçmişdə insanlar arandan- dağa, dağdan-arana gedib gəlirdilər. Bir növ köçəri həyat sürürdülər. Sovet dövründə bu adəti tərgidib oturaq həyata, aranda yaşayıb kolxoz qurmağa məhkum edildilər. Amma hər il yayda imkan tapanlar yenə suyuna, havasına və gözəlliyinə görə can dərmanı dağlara üz tuturdular. Otuz il dağlara gedən o yollar div xislət ermənilər tərəfindən bağlandı, kəsildi. Dağlara həsrət qalan insanlar son nəfəsdə belə alagözlü o yaylaqları anırdılar, yanırdılar.

Tələbə ikən mən də o gözəlliklərdən kam almağa getmişdim. Avtobus Qarabağın mərkəzi sayılan, dağla aranın qovuşduğu Ağdamdan keçəndə orada bir bulaq gördüm. Dağın altından qaynayıb çıxan gur, büllur suyu şırhaşır axan o bulağa məftun oldum və sonralar "Şah bulağı" adlı bir şeir yazdım.

...Avtobus dağın döşü ilə İstisuya gedirdi. Dərənin dibi ilə çay axırdı. Alt-üst hərəkət etsələr də, biri dağa, biri arana tələsirdi. Avtobus mənzil başına çatdı və çayın qırağında dayandı. Çay möhtəşəm idi. Səsi dağı-dərəni başına götürmüşdü. Daşların, qayaların üstündən aşaraq hayqıra-hayqıra üzü aşağı axırdı. Bu, yerlilərin Dəliçay dediyi, yatağı dağın ətəyi, çayın qırağı olan İstisu möcüzəsinə şərik çıxmış Tərtər çayı idi. Çayın ortasında nəhəng bir qayanı dəlib göyə millənən fəvvarənin İstisumu, adi sumu olduğunu ayırmaq çətin idi. Bu, bizim xalis öz çayımız, öz dağlarımızın suyu idi. İstisuyun Taxtasında Dəlidağın belinə dolanaraq gəlib burdan keçirdi. Mən üsyankarlığına, ağappaq, köpüklü suları daşlarla, qayalarla döyüşə-döyüşə axan, arandan keçəndə sakitləşib quzuya dönən Tərtərə vuruldum və ona da bir şeir yazdım.

Bu şeirlər ilk dəfə "Azərbaycan gəncləri" qəzetində, sonra Universitetdə fəaliyyət göstərən ədəbiyyat dərnəyi üzvlərinin əsərlərindən ibarət "Gənclik nəğmələri" almanaxında nəşr olunmuşdu. Dərnəyin rəhbəri və almanaxın redaktorları Bəxtiyar Vahabzadə və Yusif Şirvan idi, kitab Respublika Həmkarlar İttifaqının fəxri fərmanına layiq görülmüşdü. Bu kitabdan sonralar Azərbaycan ədəbiyyatında və elmində tanınmış şəxslər çıxmışdı: (Yaşar Qarayev, Hüseyn Kürdoğlu, Tofiq Hacıyev və b.). Ağdamlı jurnalist Əsgər Ələsgərov "Şah bulağı" şeirini Ağdam qəzetində də çap etdirmişdi.

Uzun illər adı dilimizdə, dərdi ürəyimizdə yaşadıq Qarabağsız. Toxtaqlıq, təsəlli yox idi. Dodaqlardan ancaq "getdi" sözü qopurdu. Telexəbərlərin xəbərləri də ürək qısan idi. Erməni bu qədər atdı, cavab atəşilə susduruldu və s. Qarabağ dünyanın ağzında çürük saqqız kimi çeynənirdi. Dünya qanunu (BMT) bu məkanın sahibinə qaytarılması qərarını dəfələrlə versə də, əməl edən yox idi. Əməl et, - deyən, təzyiq göstərən də yox idi. Azərbaycanın İrəvan xanlığında dünən dövlət qurmuş bu bədxah ermənilər nədən dünyanın əziz xələfinə, gözmuncuğuna çevrilib?

Mənliyimiz, qürurumuz tapdanmışdı. Kimin qarşısında? Bir nankor, qorxaq və yaltaq erməninin. O, kimdir ki? Onu irəli itələyən, şirnikdirən, qışqırdan vardı. Arxalı köpək qurd basar.

Ordu yaranırdı, güclü silahlar alınırdı. Ölkənin daxilində və xaricində, gələnin-gedənin qabağında Qarabağ dərdi sərgilənirdi. Lakin dünyanın qulağına qurğuşun tökülmüşdü. Kardı və kordu. Nə görür, nə də eşidirdi.

Gölə qələm sancan erməni Qarabağı qarış-qarış minalayır, varını, sərvətini söküb talayır, qarnı-gözü doymur, qəbirləri də goreşən kimi eşib ölünün dişində- başında qızıl axtarır. Onun fironluğu, qudurğanlığı həddini aşır. Dişində Qarabağdan şirə qalıb. Ayağını daha yuxarı pillələrə qoyub, təzə torpaqlarımızı tutmaq xəyalına düşür. Bizə yandıq verib Şuşada yallı gedir. Hərbiçilərimizi topa tutur. Biz isə bu ədalətsiz dünyadan ədalət gözləyirik. Bıçaq sümüyə dirənib. Donuz kiş-kişlə darıdan çıxmaz.

Bu hadisələr təzə-təzə başlayanda insanlar "Topxana meşəsi qırılır!" harayına Azadlıq meydanına axışanda başlı-başınalıq idi. Xalqın gözü başbilənlərin ağzında qalmışdı. Bir yazar "Bunu o qaçqın uşaqlar yazacaq" – deyə yaxasını qırağa çəkirdi. Bir təzə bəy qaçqınlara "Ayağınız daş-kəsəkdən asfalta çıxıb", - deyə təskinlik verirdi. Araşdırıcı stulundan uca dövlət kürsüsünə əyləşmiş bir təzə bəy də arxayın-arxayın deyirdi ki, gələcək nəsil alacaq torpaqları.

Bu gözəl, işıqlı dünyamızda hər birinin öz missiyası olan on iki ay var. Elə aylar var ki, taleyinə həm fərəhli, həm kədərli hadisələr yazılıb. Təhsilə, elmə qapı açan, payızın ilk ayı sentyabrın qızıl hərflərlə tarixə yazılacağını biz hələ bilmirdik. 27 sentyabr Ali Baş Komandanın həm hücum, həm qələbə müjdəsini birdən eşitdik. Başımız göyə dəydi. Uzun illərin töhməti, xəcaləti üstümüzdən götürüldü. Uşaqdan-böyüyə hamı sevinc içində idi. Həm gülür, həm ağlayırdılar. Sevinc yaşları idi gözlərdən axan. Qarabağın başına gətirilən müsibətlər neçə-neçə insanın ömrünə balta çaldı. Bu gün onların ruhları da rahatlıq tapdı.

Aprel döyüşləri də qələbə vəd edirdi. Axıra çatmağa qoymadılar. Lakin bu dəfə Ali Baş Komandan heç kəsin hədə-qorxusuna baxmayacağını elan etdi və "Vur!" – dedi. "Vur!" - deyən Sağ olsun!

Makedoniyalı İskəndər Qordi düyününü xəncərlə kəsdi. Ali Baş Komandanın rəhbərliyi, ordunun gücü, xalqın sevgisi və dəstəyi dəmir yumruq kimi birləşdi və otuz il Azərbaycan xalqını alçaldan, təhqir edən nankor erməninin bağladığı Qarabağ düyününü xıncım-xıncım etdi.

Azərbaycanın gələcək taxt-tac həvəskarları, iddiaçıları Vətəni qorumaq üçün bunu bir örnək bilsinlər, bu yolu tutub getsinlər!

Daşların köksündən töküldükcə sən,
Səsin dilləndirir dərəni, dağı.
Niyə ağlayırsan, mən güldükcə sən
Dağların göz yaşı, ey Şah bulağı?!

Nakam bir aşiqin naləsinimi
Əzəldən yayırsan yamaca-yala?
Dərdli bir çobanın ney səsinimi
Yetirmək istədin o ay camala?!

Gecələr həmdəmin parlaq ulduzlar,
Gündüz gözəllərdir qonağın sənin.
Neçə məclislərdə söz-söhbətin var
Tutubdur aləmi sorağın sənin.

Dirilik eşqidir suyun, ey bulaq,
Qəlbimdə od oldun, gözümdə işıq.
Sevən ürəklərə gəl qoşa dolaq,
Suyundan içənlər elə yaraşıq.

Yaşıl qanadını sərib üstünə,
Neçə ilk görüşün şahidi çinar.
Qoy həsəd aparsın şairlər sənə,
Kimin sənin kimi coşğun təbi var?!

Dağların köksündən çağladıqca sən,
Səsin dilləndirir dərəni-dağı.
Mən gülə bilmirəm ağladıqca sən,
Sən bizə şərbət ol, yadlara yağı,
Dirilik suyusan, ey Şah bulağı?!

**1957**

Arandan gəlmişəm, yorğunam yaman,
Qoy içim bir ovuc bumbuz suyundan.
Burula-burula axan Tərtərim,
Durula-durula axan Tərtərim.

Sevimli balası göy dərələrin,
Vüsala çatmışam səninlə yenə.
Coşğunsan, çılğınsan onunçün yəqin,
Dəli çay deyirlər bu yerdə sənə.
Yalçın qayalardan qopan Tərtərim,
Minib ağ atını çapan Tərtərim.

Nəğməli bulaqlar, neyli bulaqlar,
Dağların döşüylə süzülüb gəlir.
Dodağında gülüş, qəlbində bahar
Şaqraq gülüşlərin göyə yüksəlir.
Al-əlvan çiçəklər bitirən Tərtər,
Dağlara yaraşıq gətirən Tərtər.

Çiskin, duman gəlir, qovuşur toran,
Yalvarıb deyirəm, bir azca dayan.
Sözümə baxmırsan, dağlar gəlini,
Təbiət ərköyün böyüdüb səni!

Aram-aram yağır, əsir küləklər,
Damcılar səpilir büllur sinənə.
Vurğunun yeriydi deyirəm, Tərtər,
Axı mən kiməm ki, söz qoşam sənə?

**1959**